**UNESCO-nun mənzil qərərgahında memar Əcəmi Naxçıvaninin 900 illiyinə həsr edilmiş sərgi açılıb** // İki sahil.-2025.- 16 dekabr.- №229. - S.8.

Parisdə UNESCO-nun mənzil-qərargahında təşkilatın yubileylər proqramına daxil edilmiş memar Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyinə həsr edilmiş sərginin açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, sərgi UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi, UNESCO yanında Daimi Nümayəndəliyin, Azərbaycan Memarlar İttifaqı və Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı və UNESCO-nun tərəfdaşlığı ilə təşkil edilib.

Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev, UNESCO-nun Baş direktorunun Mədəniyyət məsələləri üzrə müavini Ernesto Ottone, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, ölkəmizin UNESCO üzrə Milli Komissiyasının nümayəndəsi Nigar Rəhimli, Azərbaycan Respublikasının Əməkdar memarı, Azərbaycan Memarlar İttifaqının katibi və İttifaqın Peşəkar Etika Kollegiyasının sədri Rasim Babakişiyev çıxış edərək, Əcəmi Naxçıvaninin həyat və yaradıcılığı haqqında məlumat veriblər.

Natiqlər bildiriblər ki, Azərbaycanın görkəmli orta əsr memarı Əcəmi Naxçıvaninin yubileyi UNESCO-nun 2024–2025-ci illər üzrə Yubileylər Siyahısına daxil edilib və bu, Azərbaycan mədəni irsinin dünya miqyasında tanıdılmasının növbəti nümunəsidir. Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyinin qeyd edilməsi Azərbaycanın Ümumdünya İrs Komitəsinin üzvü olduğu dövrə təsadüf edir və ölkəmizin qlobal səviyyədə mədəni irsin qorunmasına sadiqliyini bir daha nümayiş etdirir.

Qeyd edilib ki, Əcəmi Naxçıvani Azərbaycan mədəniyyət tarixinin ən parlaq simalarındandır. Riyazi dəqiqliyi bədii təxəyyüllə birləşdirən memar Naxçıvan memarlıq məktəbinin banisi kimi tanınır. XII əsrin nadir inciləri olan Möminə Xatun türbəsi və Yusif ibn Küseyr türbəsi onun dahiliyinin bariz nümunələridir. Əcəmi məkan quruluşunda yeni prinsiplər tətbiq edərək, unikal ornamental üslub yaradıb və həndəsi dili dövrü üçün misilsiz səviyyəyə yüksəldib.

Diqqətə çatdırılıb ki, onun yaradıcılıq irsi əsrlər boyu memarları və sənətkarları ilhamlandırıb, regionda memarlıq düşüncəsinin inkişafına güclü təsir göstərib. Əcəmi Naxçıvaninin irsi memarlıqla məhdudlaşmır. Onun obrazı təsviri sənətdə də əksini tapıb. 1983-cü ildə Bakıda keçirilən Şərq Xalça Sənəti üzrə Beynəlxalq Simpozium zamanı görkəmli xalça ustası Lətif Kərimovun toxuduğu və Əcəmi Naxçıvanini təsvir edən xalça UNESCO-ya hədiyyə edilib. Bu gün həmin xalça UNESCO-nun divarlarını bəzəyərək dostluq və mədəni mübadilənin rəmzinə çevrilib.

Sərgidə Əcəmi Naxçıvaninin həyatına və yaradıcılığına həsr olunmuş şəkillərdən əlavə, Türk Mədəni İrsi Fondu tərəfindən hazırlanmış yeni kitab və broşürlər təqdim olunub. Bu kitab orta əsr Azərbaycan memarlığının öyrənilməsi baxımından dəyərli elmi töhfədir.